*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2023, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 63-70* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2023.1.63*

# Mirzə Ələkbər Sabirin tənqid hədəfləri XXI əsrdə

**Elnarə Əliyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nəsimi adına Dilçilik İnstitutu. Azərbaycan.
E-mail: dok.elnare_e@mail.ru

**Annotasiya.** Mirzə Ələkbər Sabir Azərbaycan ədəbiyyatında ədəbi məktəb yaratmış bir sənətkardır. İnqilabi-demokratik satiranın əsasını qoymaqla insanları məhrumiyyətlərdən qurtarmaq üçün mübarizəyə səsləyirdi. Sabir satiralarında müxtəlif insan tipləri yaratmışdı. Bu obrazların bəziləri öz eyiblərindən xəbərsizlər, mənfi əməlləri ilə qürur duyanlar, bəziləri isə acı məhrumiyyətlərə məruz qalanlardır. Məsələn, ölməz sənətkar dövrünün qadınlarını bəzən ürək yanğısı ilə təsvir edir, bəzən də onlardakı cahilliyi, geriliyi öz dilləri ilə tənqid edir. Şairin ən ümdə arzusu öz millətini elm, maarif, mədəniyyət yolunda görmək idi, xalqının imzasını millətlər arasında görmək idi. Sevindirici haldır ki, şairin arzuları, görmək istədikləri artıq reallaşmışdır.
Məqalədə M.Ə.Sabir yaradıcılığındakı müxtəlif səpkili obrazlar müasir dövrümüzlə müqayisəli şəkildə təhlil olunmuşdur.
**Açar sözlər:** M.Ə.Sabir, poeziya, şair, Azərbaycan

**Məqalə tarixçəsi:** göndərilib – 06.11.2022; qəbul edilib – 27.11.2022

# Critical targets of Mirza Alakbar Sabir in the 21st century

**Elnara Aliyeva**
Doctor of Philosophy in philology
Institute of Linguistics named after Nasimi of ANAS. Azerbaijan.
E-mail: dok.elnare_e@mail.ru

**Abstract.** Azerbaijani poetry is a multifaceted world with a rich, ancient history. Thousands of poets have left this world to this day, but not everyone has been lucky enough to conquer centuries and millennia. Mirza Alakbar Sabir, whose 160th birthday has already been celebrated, was destined to be just so beloved and chosen.
Mirza Alakbar Sabir is a poet who created a literary school in Azerbaijani literature. Having laid the foundations of revolutionary-democratic satire, he called on people to struggle against deprivation. In his satires, Sabir created a variety of human types. Some of these characters are unaware of their flaws, are proud of their negative actions, and some suffer from bitter deprivation.
With bitterness in his heart, the immortal poet describes the women of his era, and sometimes criticizes their ignorance and backwardness in their own language. The greatest desire of the poet was to see his people on the path of science, education and culture, to see traces of his people among the peoples. It is gratifying that the poet's dreams and what he wanted to see have already come true.
In the article, the creative images of M.A.Sabir of various styles are analyzed in comparative terms with our modern time.
**Keywords**: M.A.Sabir, poetry, poet, Azerbaijan

**Article history:** received – 06.11.2022; accepted − 27.11.2022

## Giriş / *Introduction*

Azərbaycan poeziyası zəngin, qədim tarixə malik çoxşaxəli bir dünyadır. Müasir günümüzə qədər bu dünyadan minlərlə şair keçib. Lakin hər kəsə nəsib olmayıb ki, əsrləri, minillikləri fəth etsin. Mirzə Ələkbər Sabirin taleyinə bu cür sevilib-seçilmək düşmüşdü.

"Molla Nəsrəddin" ədəbi məktəbinin fəallarından biri kimi, poeziya dünyasında hər türlü yeniliklərə imza ataraq özünəməxsus ədəbi məktəb yaratmışdır ölməz sənətkar. Mirzə Ələkbər Sabirin "gizli imza" kimi qəbul etdiyi "Ağlar güləyən" ifadəsindəki ağlamaq maarifçi, gülmək isə tənqidi düşüncənin xüsusiyyətlərini özündə cəmləşdirir" [2, s.6].

Tüfeylilik, soyğunçuluq, istismarçılıq kimi hallar adiləşəndə, yaranmışların ən şərəflisi insan ayaqlara düşəndə cəmiyyətdə böhran əmələ gəlir. Dövlət, hökumət və qanunun fəaliyyəti çürüməkdə olan sistemi müdafiə etməyə yönəlir. Belə bir dövrdə yalnız xalqın həqiqi, namuslu və sədaqətli oğulları ictimai və milli azadlığa nail olmaq üçün öz haqq səsini ucaldır. XX əsrin ən böyük ədəbi simalarından olan Mirzə Ələkbər Sabir də belələrindən idi. O, Azərbaycan ədəbiyyatı tarixində istər şeirin məzmununda, mövzusunda, istər formasında, istər bədii ifadə vasitələrindən istifadə etmək bacarığına görə novator sənətkar kimi yeniliklər yaratmışdır.

İnqilabi-demokratik satiranın əsasını qoymaqla insanları məhrumiyyətlərdən qurtulmaq üçün mübarizəyə səsləyir. Realist sənətkar kimi, konkret tarixi dövrə və şəraitə əsaslanır.

## Əsas hissə / *Main Part*

Sabiri realist satira yoluna salan başlıca amil böyük vətəndaşlıq vəzifəsini dərk etməsi idi. Realizm, həqiqətpərəstlik şairin nəzərində bədii yaradıcılığın başlıca şərtidir. Çünki Sabir ədəbiyyatı ictimai varlığın "ayinəsi" hesab edir. Həm də elə bir ayna ki, oraya baxanda bir qisminin öz əksini əyri görüb qəzəblənməsindən asılı olmayaraq, həmin ayna yaxşını yaxşı, pisi pis, əyrini əyri göstərsin. Hər kəlməsi bədxahları neştərləyən şair insanları tərbiyə etməkdə moizə və nəsihətin əhəmiyyətsiz olduğunu dərk edərək deyir: "Bir adamı rahat oturduğu yerdə yerindən durğuzub oynatmaq üçün ona onun könlü istədiyi və sümüyünə düşdüyü hava çalınmalıdır. Belə olmasa, o, qollarını açıb süzə bilməyəcək" [6, s.8-9].

"Bir məclisdə on iki kişinin söhbəti" satirasını Sabirin əzəmətli "poeziya teatrı"nın proloqu hesab etmək olar. Bu ictimai tiplərin hər biri öz "monoloq"unu söyləyib "səhnə arxasına" çəkilərkən "tamaşaçıya" (oxucuya) tamamilə aydın olur ki, gələcəkdə "satira teatrı"nın növbəti pərdələrində bu tiplərin təmsil etdikləri milli-ictimai zümrələr özlərinin əsl simalarını bütün genişliyi və çalarları ilə nümayiş etdirəcəklər. Gözlənilən hadisələr bütün çılpaqlığı ilə baş verdikcə Sabirin kəskin, ifşaedici satira oxları onların sinələrinə daha amansızlıqla sancılmağa, bu on iki kişidən qat-qat çox olan zümrələrin iç üzünü həmin zümrələrin təmsilçilərinin öz "təqdimatları" – monoloq və dialoqları ilə açmağa başladılar [1].

Bu satirada dahi söz ustası özünü ifşa üsulu ilə haqsızlara haqli deyib, günaha batan vəkil, dərdə əlac etməyib qohumları ağladan həkim, halal ilə haramı bir-birinə qatan tacir, gündə bir fitva verib insanları aldadan molla və s. obrazları danışdırır.

M.Ə.Sabirin tənqid hədəflərini dövrümüzlə müqayisə etdikdə ən ümdə dövrün nəbzini tutmayan, texnikanın inkişafından olduqca geri qalmış cəsarətsiz və savadsız insanları görürük:

*Dindirir əsr bizi, – dinməyiriz,*
*Açılan toplara diksinməyiriz;*
*Əcnəbi seyrə balonlarla çıxır,*
*Biz hələ aftomobil minməyiriz;*

*Quş kimi göydə uçar yerdəkilər,*
*Bizi gömmüş yerə minbərdəkilər!*

Bu gün isə bizim ordumuz ən müasir texnikadan istifadə edir, alimlərimiz bu sahədə böyük uğurlara imza atıblar. Hətta kosmosun fəthində də azərbaycanlıların adı vardır. Belə ki, Musa Manarov 1987-ci il dekabrın 21-də Yerə düz 1 il – 365 sutka 23 saatdan sonra qayıdaraq kosmosda o dövr üçün ən uzun müddət qalan iki planet sakinindən biri olmuşdur. Bu qəhrəmanlığına görə ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir [16]. Kosmonaftika sahəsində xüsusi xidmətləri olanlar arasında milliyyətcə Azərbaycan türkü olan Anuşe Ənsari, Kərim Abbasəli oğlu Kərimov, Tofiq Kazım oğlu İsmayılovun da özünəməxsus yeri var.

Çox sevindirici haldır ki, müasir dövrümüzdə ölkəmiz texnika sahəsində kifayət qədər irəli getmişdir. M.Ə.Sabirin də ən ümdə arzusu xalqını elm, maarif, mədəniyyət yolunda görmək idi, xalqının imzasının millətlər arasında görmək idi. Akademik İ.Həbibəylinin də haqlı olaraq qeyd etdiyi kimi, "Sabirlərin arzusunu Ulu Öndər Heydər Əliyev və hazırda isə Prezident İlham Əliyev müstəqil Azərbaycanı addım-addım irəli aparmaqla həyata keçirmiş olur" [3].

Sabir öz etnosunu fəal vətəndaş mövqeyindən mənfi etnik xüsusiyyətlərimizi tənqid və ifşa edərək müxtəlif sosial qruplara aid tipləri təsvir etməklə milli xarakterdəki, şüurdakı, adət-ənənələrdəki əyintiləri barizləşdirir, qrup üzvlərinin ictimai və fərdi psixologiyasını müəyyənləşdirir, qrupların tipik psixoloji xüsusiyyətlərini aşkar edir [5, s.85].

Sabirin "qəhrəmanları" Sonyalara, Barışnalara aşiqlər, Fatma-Tükəzbanları adam saymayan, "gavur qızı" deyə təhqir edən yekəqarınlar idi.

*Tacirlərimiz Sonyalara bənd olacaqmış, –*
*Bədbəxt Tükəzbanları neylərdin, ilahi?!*
*Bilməm nə çarə eyləyim, ay Molla Nəsrəddin!*
*Çərlətdi məni bizim övrət, gavur qızı!..*
*Örkən, palas, çatı toxu, ip tovla, yun dara,*
*Təndir qala, bişir çörək, aş, ət, gavur qızı!*
*Sal başını aşağə sən, ancaq işində ol,*
*Paltar yu, ev süpür, elə xidmət, gavur qızı!*

Bu qadınların cəmiyyətdə heç bir hüququ yoxdur. Ərin qarşısında kölə həyatı sürür, çoxarvadlılığı müticəsinə qəbul edir. Onun borcu yalnız təmizlik işləri, ər və uşağa qulluqdan ibarətdir. Sabir dövrünün qadınlarını bəzən ürək yanğısı ilə təsvir edir, bəzən də onlardakı cahilliyi, geriliyi öz dilləri ilə tənqid edir:

*Neyləyirdim bəzəyi ya düzəyi?*
*Dama, divara yapardım təzəyi.*
*Atam əllaf, babam dülgər idi,*
*Qardaşım culfa, əmim kargər idi,*
*Xanbibim falçı, nənəm bağ toxuyan,*
*Bizdə, haşa, yox idi bir oxuyan!..*
*Nə bilirdik nə zəhirmardı kitab?*
*Biz olan evdə haçan vardı kitab?*

Müasir dövrümüzdə qızlarımız hərtərəfli tərəqqi edib, həm savadı, həm gözəlliyi, həm də səliqə-sahmanı ilə seçilir. Çağdaş dünyamızda qadınların əksəriyyəti ali təhsil alıb, həm elmi, həm də ictimai-siyasi həyatda fəal rol oynayır, kişilərlə hüquq bərabərliyinə malikdir. Təsadüfi deyil ki, artıq elm sahəsində də qadınların sayı kişilərdən çoxdur.

Şair göstərdiyi kimi, elmin, maarifin düşməni təkcə əzilən, ev işlərindən başqa heç nə bacarmayan qızlar deyil, həm də cahil, müsəlman atalar idi.

*Bilməm nə görübdür bizim oğlan oxumaqdan?*
*Dəng oldu qulağım.*
*Jurnal, qəzetə, hərzəvü hədyan oxumaqdan*

*İncəldi uşağım.*
*Ağlın aparıb bəs ki, baxır gündə qaraya,*

Ya rəb, nə həmaqət! – bu sətirlərdə qəzet, jurnal oxuyan övlad cahil, nadan atanın yolunu tutmadığı üçün onda narahatlıq yaradır, çarəsiz ata Allahdan imdad diləyir.

Şair oğlunu sığallayaraq elmdən uzaq tutan başqa bir atanı da söz ilə tənqid atəşinə tutur:

*Kuçədə tullan, ey oğul, sənətin olmur, olmasın!*
*Sənətə, dərsə, məktəbə rəğbətin olmur, olmasın!*

XXI əsrdə hər bir ata övladını ali təhsilli görməyə, zamanın tələblərinə cavab verən səviyyədə yetişdirməyə çalışır. Hər il onlarla tələbə Avropa ölkələrinə təhsil almaq üçün üz tutur. Təbii, bu hal M.Ə.Sabirin ən ümdə arzularından idi.

Sabirin yaşadığı cəmiyyətdə üzləşdiyi böyük problemlərdən biri də qadınların hüquqsuz, kölə vəziyyətində yaşamaları, ictimai və mədəni inkişafdan geri qalmaları, feodal-burjua əxlaqının və şəriətin çoxarvadlılığa yol verməsi, qadının öz övladına yaxşı tərbiyə verə bilməməsidir. Həmin məsələlərin realistcəsinə bədii həllini verən Sabirin əsərlərində qabaqcıl və dolğun ideya məzmunu, böyük təsir qüvvəsi vardır. “Ay nənə, bir qırmızı saqqal kişi”, “Gavur qızı”, “Qoyma, gəldi”, “Çatlayır Xanbacı qəmdən ürəyim” və s. bu cəhətdən xarakterikdir.

Xalqının kədərini, dərdini, zəmanəsindəki cahilliyi ürək ağrısı ilə qələmə alan şair azyaşlı qızların zorla yaşlı kişilərə ərə verilməsinə qarşı üsyan edir. “Qoyma gəldi” satirası bu cür hallara bir humanist kimi etiraz edən şairin yaradıcılıq məhsuludur. Burada mərkəzi motiv şeirin əvvəlindən axırınacan qorxu və həyəcan hissilə təkrar edilən əhval-ruhiyyə: ata-anası tərəfindən aldadılaraq qoca kişiyə ərə verilmiş balaca gəlinin ər deyilən bu ərdoya – qabana qarşı sonsuz ikrah və nifrətidir:

*Ol gün ki, adaxladız, utandım,*
*Oğlandı, dediz ərin, inandım.*
*Ər böylə olurmuş?! İndi qandım.*
*Xandostu, amandı, qoyma gəldi!*
*Kirdarı yamandı, qoyma gəldi!*

Azyaşlı gəlinin qocaya nifrətini kəskin surətdə göstərmək üçün Sabir bir neçə təsvir vasitəsindən istifadə etmişdir. Şair həm mənfi tipin portretini çəkir, qocanın zahirən adamaoxşamaz olduğunu, onun “dudkeş kimi” papağını, ağ tüklü qaşlarını təsvir edir, həm də bir insan olaraq, ondakı iyrənc keyfiyyətləri – ağzının suyu axdığını, üst-başından qətran qoxusu gəldiyini göstərir. Bu səbəbdən də qız şeirin bir yerində bu qocadan iyrəndiyini dilə gətirir.

Bu əsərlərdə satira atəşi təkcə qadın əsarəti səbəbkarlarına qarşı yox, eyni zamanda öz məhkumluq və nadanlığını başa düşməyən qadınlara qarşı yönəlmişdir. Sabirin realist təsviri bu həqiqətləri tam mənada bir tragikomediya səviyyəsinə qaldırır: özü boyda oğlu olan qırmızı saqqal qocaların arvadları ola-ola 10-12 yaşlı qızlarla evlənməsi, həqiqətən, sarsıdıcı bir komediyadır [6, s.230].

Şair öz içinə atılan bu gəlinlərin acı taleyinə ürəkdən yanır, onların keçirdiyi həyəcan hissini sadə, xalq dilində olduğu kimi əks etdirir.

*Qorxdum, ay aman, yarıldı bağrm,*
*Bir nazik ipə sarıldı bağrım,*

*Gup-gup döyünüb darıldı bağrım,*
*Canım oda yandı, qoyma, gəldi!*
*Kirdarı yamandı, qoyma, gəldi!*

Şeirdə satira ilə lirika vəhdət təşkil edir. Satirik keyfiyyətlər şeirdə "qaban" təbiətli qoca ərlərə, lirika isə şairin rəğbət bəslədiyi, halına yandığı bədbəxt qıza aiddir.

Əsərlərinin çoxunda istismarçı siniflərin nümayəndələrini danışdırmaq üsulundan istifadə edərək satirik monoloq yaradır [4, s.131]. Şair fəhlə, əkinçi, dövlətli, dilənçi, ziyalı, "barışna", Fatma, Tükəzbanlar kimi kənd qadınları, bir sözlə, bütün təbəqələrə malik tipik insan portretlərini gözümüz önündə canlandırır.

Cəhalətin zil qaranlığına qərq olmuş köhnə aləmin elə bir üfunətli sahəsi yoxdur ki, Sabir satirasının mərmiləri ora düşməsin [8, s.15]. Şairin qələmində mənfi tip öz-özünü oxucuya təqdim edir:

*Zülmətsevər insanlarız üç-beş yaşımızdan,*
*Fitnə göyərir torpağımızdan, daşımızdan,*
*Tarac edərək bac alırız qardaşımızdan,*
*Çıxmaz, çıxa bilməz də bu adət başımızdan.*

Ustad sənətkarın ədəbi dilimizə göstərdiyi göstərdiyi başlıca xidmət şeir dilinin tam xəlqiləşdirilməsi, bu dilin gələcəkdə daha da demokratikləşməsinə yol açmasıdır.

Xalqın əleyhinə çevrilənlər, ona dönük çıxanlar, insanlar arasında nifaq, ziddiyyət törədənlər, quduğan siniflər, azadlıq düşmənləri, bir sözlə, müstəmləkə rejiminə xidmət göstərən qara qüvvələr şairin satiralarında amansız şəkildə ifşa olunurdu.

Zəhmətkeşləri acınacaqlı vəziyyətə salan, onların bədbəxtliyi hesabına xoşbəxtlik qazanan "seçilmişlər", lovğa, qudurğan sahibkarlar, mülkədarlar Sabirin düşmənləri idi. "Bakı fəhlələrinə", "Fəhlə, özünü sən də bir insanmı sanırsan", "Təraneyi-əsilanə" fəhlə mövzusunda yazılmış satiralar idi. Bu satiralarda təsvir olunan fəhlə Azərbaycan ədəbiyyatına, bir qədər gec də olsa, yenicə gəlmiş müsbət qəhrəman idi. Başında "yekə bir motal", "ayağı çarıqlı", "cırıq çuxalı", "sərvəti", "dövləti", "şahı", "əbası" olmayan bu zəhmətkeş insanları burjua nümayəndələri, xan, bəy, mülkədarlar tənqid atəşinə tuturlar.

*Dövlətliyik, əlbəttə, şərafət də bizimdir,*
*Əmlak bizimdirsə, əyalət də bizimdir*
*Divan bizim ərbabi-hökumət də bizimdir.*

İnsanlığı mal-dövlətdə, rütbədə görən, insanın ən yüksək və müqəddəs hisslərini, qəlbi, vicdanı, ağlı pul ilə ölçən kapitalist ağalar bir-birinin dediyini təsdiq edir. Hətta "başı havalı", "əbləh", "qalın qafalı fələ" deməklə onu təhqir edir.

Şair fəhlə və dövlətlini ictimai planda təsvir etsə də, onların bir insan olaraq həyati xüsusiyyətlərini də gözdən qaçırmır:

*Axmaq kişi, insanlığı asanmı sanırsan?! – yaxud*
*Alçaq, ufacıq daxmanı samanmı sanırsan?!*

Bu satiralarda fəhlə ilə sahibkar arasında gedən mübarizə hüquq və bərabərlik uğrundadır. Vaxtilə "yatan cəmaətin" indi ayılıb göz açması yuxarı təbəqənin nümayəndələrini qorxuya salır və onlar bacardıqca bu haqq səsini boğmağa çalışırlar.

Sabir gülə-gülə ağlayır, ağlaya-ağlaya gülür. Onun qəhqələrindən göz yaşları və fəryad, göz yaşlarından acı qəhqəhə doğur [8, s.19].

*Bu çərxi-fələk tərsinə dövran edir imdi,*
*Fəhlə də özün daxili-insan edir imdi...*

Sabirin təsvirində fəhlə canlı, real, tipik surətdir. Sabir satiralarında kəndli həyatını öz tipik cəhətləri ilə qarşımızda canlandırır. Mülkədar zülmü kəndləri viran qoymuşdur. Kəndə nüfuz etməkdə olan kapitalist münasibətləri buradakı təbəqələşməni daha da sürətləndirərək acların, dilənçilərin sayını gündən-günə artırır.

1907-ci ildə yazılmış "Əkinçi" şeiri Sabirin qələmindən çıxan ən qüvvətli, realist əsərlərdən biridir. Burada da şair mülkədarı danışdırmaq yolu ilə həm onun özünün, həm də kəndlinin həyat tərzini təsvir etmişdir. Bütün ömrünü torpağa sərf edən, ümidini yalnız bostana bağlayan əkinçi yağışın yağmaması, yaxud dolu düşməsi nəticəsində ac qalmalı olur. Buna baxmayaraq, azğın mülkədar ondan öz haqqını istəyir: onu şallaqla hədələyir və çarəsiz qalan bu insana "ağıllı" məsləhətlər verir:

*Cütcü babasan, buğdanı ver, darı yeyərsən,*
*Su olmasa, qışda əridib qarı yeyərsən,*
*Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən,*
*Öyrəşməmisən ət-yağa dünyadə, əkinçi!*
*Heyvan kimi ömr eyləmisən sadə, əkinçi!*

Satirada "heyvan kimi ömr eləyən əkinçi" ilə "şamü nəharı meysiz, məzəsiz bitməyən" mülkədar qarşı-qarşıya qoyulur. Son iki misrada o, bütün əsər boyu yazdıqlarına yekun vuraraq bir hökm şəklində həmin bəyzadənin dili ilə deyir:

*İştə belədir haləti-bəyzadə, əkinçi!*
*Bəyzadələrin rəsmi budur, adə əkinçi!..*

Sabir insanın insan tərəfindən istismarı üzərində qurulmuş cəmiyyətdə pulun oynadığı pozucu rolu görür və "Adəmi adəm eyləyən paradır", "Pula təvəccöh", "Bəzi yerlərdə təsadüf olunur aşa, ətə", "Rədd ol qapıdan, ağlama zar-zar, dilənçi", "Bir cibimdə əskinasım, bir cibimdə ağ manat" satiralarında pul hərisini öz dili ilə ifşa edir:

*Adəmi adəm eyləyən paradır,*
*Parasız adəmin üzü qaradır*

– beyti şeirdə bir növ müqəddimə halında verilir. Sonrakı 3 bənddə pulun köhnə cəmiyyətdəki mövqeyi konkret faktlarla verilir.

Şair "alver dünyasında insanlıq pula bağlıdır" – deyərək, bu mənhus həqiqətə acı-acı gülür. Onun yaşadığı bu aləmdə insanın nə ağlına, idrakına, nə də əslinə-nəcabətinə baxan yoxdur, bircə şey lazımdır:

*Baş-ayaq eyb içində olsan da,*
*Tək bu aləmdə dövlətin olsun!*

Sabirə görə, bu, burjua cəmiyyətinin ən murdar qanunlarından biridir. "Bəzi yerlərdə təsadüf olunur aşa, ətə" satirasında mənliyini itirmiş insan öz nadanlığı ilə belə fəxr edir:

*Nuş olur canıma ət, xacə o həngamda kim,*
*Mən yeyəm, xırda uşaqlar baxa, ağlaşa ətə!*

Şair burda bütün varlığı ilə seçilən xəsis obrazı yaratmışdır. Bu tip özü də dünya nemətlərindən həzz almaq istərdi. Lakin heyf ki, bütün bu nemətlər pul tələb edir. O isə pulu yalnız "sandığa" yaraşdırır, onu həyatının mənası hesab edir və bu yolda bütün qurbanlara hazırdır:

*Verərəm, dinimi, imanımı, əmma pulumu*
*Vermərəm "Bəhlul" ağa, arxayın ol, aşa, ətə!*

Xəsisliyi bir ictimai xəstəlik kimi təsvir edən Sabir "Pula təvəccöh" şeirini bu mövzuya həsr etmişdir. Satirada pulu fetişləşdirən, hər şeyi pula qurban verən ağalar ifşa edilmişdir. Şair göstərir ki, pul olan yerdə onların gözünə nə ismət, nə namus, nə din, nə məzhəb görünür:

*Nuri, çeşmanımmısan, ey pul, ya canımmısan?*
*İsmətim, namusum, irzim, qeyrətim, canımmısan?*
*Hörmətim, fəxrim, cəlalım, şövkətim, şanımmısan?*

Sabiri məsələnin başqa bir tərəfi də ciddi düşündürür və insanpərvər bir sənətkar kimi həyəcana gətirirdi. Bu da ondan ibarət idi ki, cəmiyyətdə hasil edilən sərvətlər və nemətlər bir ovuc tüfeylinin əlində cəmləşdikcə, işsizlik, zəhmətkeşlərin ac, dilənçi vəziyyətinə düşməsi də labüd hal alır. Bu cəhətdən çox xarakterik əsər olan "Dilənçi"də dövlətli qapısına gəlmiş dilənçiyə dediyi sözlərlə həm onun, həm də özünün vəziyyətini təsvir etmiş olur:

*Dövlətliləriz, məqsədimiz eyşü səfadır,*
*Mehmanlarımız büsbütün ərbabi-qinadır,*
*Kökdür, yekədir, boynuyoğundur, nücəbadır,*
*Bəydir, ağadır, ağzı dualı üləmadır,*
*Bişmişlərimiz min cürə ləzzətli qidadır,*
*Dikmə gözünü mətbəxə, biar dilənçi!*
*Rədd ol qapıdan, ağlama zar-zar, dilənçi!*

Şeirdə dövrün ictimai ziddiyyətləri bədii təzadlar vasitəsilə ifadə edilmişdir. Cəmiyyətdəki təbəqələşmə və onun təzahür formaları, bu təbəqələşmənin nəticələri xırda detalları ilə əks olunmuşdur. Kiçik bir parçada mənfi tipin həm zahiri görünüşü, həm də daxili aləmi ilə tanış olmaq mümkündür. Bu şairin əsl sənətkarlıq məharətindən soraq verir.

**Nəticə / *Conclusion***

Beləliklə, M.Ə.Sabirin yaratdığı obrazların bədii portretlərini belə ümumiləşdirmək olar: başında yekə bir motal papaq, ayağı çarıqlı, köhnə və ya çırıq çuxalı, sərvəti, dövləti, şalı, əbası olmayan, ufacıq daxmada yaşayan **Fəhlə**; surəti murdar, çirkin (idbar) – **Dilənçi;** düdkeş kimi şiş papaqlı, kök, yekə, boynuyoğun, nücəba, bəy, ağa – **Dövlətli**; belində üç çərək qurşağı, ona nisbət papağı, əlində təsbehi, hiyləgər, imansız – **Molla,** qəmzəli, işvəli, ahu nəzərli, sənəm, lalərux, gülbədən, mələk, gözəl, xurmayı saçlı, füruzeyi-çeşm, hər evdə aşiqləri olan – **Barışnalar**; dişləri tökülmüş, kaftara bənzər, palas, çatı toxuyan, yun darayan, təndir qalayıb, çörək bişirən, paltar yuyan, ev süpürən, məktəbə getməsi qadağa qoyulan, erkən ərə verilən, başı qapazlı – **Milli qız**, mənzilində portret asılmış, kürkünü, paltarını dəyişmiş, ayağında çəkmə, pirə, ocağa şəkk edən, kafir – **Müasir insan (şair, mirzə)** və s. Xəlqi ruhda yazılmış müxtəlif şeirlərdə bu tiplərin incə təsvirlərinə rast gəlmək mümkündür. Məhz xəlqilik, sadəlik, obrazın özünü ifşası Sabir dilini səciyyələndirən başlıca amil idi. Bu üsulla da o, Sabir ədəbi məktəbinin yaranmasına səbəb olmuşdur.

**Ədəbiyyat / *References***


1. Bayramoğlu, A. Mirzə Ələkbər Sabir http://sabirmuseum.az/h%C9%99yat-v%C9%99-yaradiciligi/
2. Həbibbəyli, İ. Tənqidi realizmin estetikasina realist elmi baxiş (Ön söz)/ Salamoğlu T. Azərbaycan tənqidi realizminin estetikasi (C.Məmmədquluzadə və M.Ə.Sabir yaradıcılığı əsasında. – Bakı, 2018.
3. https://science.gov.az/az/news/open/21316
4. Mirəhmədov, Ə. Sabir. – Bakı, 1958.
5. Musayeva, T. Satira M.Ə.Sabir irsində mənfi etnik psixoloji xüsusiyyətlərin əks etdirilməsinin əsas vasitəsi kimi. /Dil və ədəbiyyat, nəzəri, elmi, metodik jurnal. – Bakı, 1996, №4.
6. Mümtaz, S. Sabir haqqında xatirələr. – “Ədəbiyyat və incəsənət”, 1970.
7. Sabir, M.Ə. Hophopnamə. – Bakı: Yazıçı 1992.
8. Zamanov, A. Sabir gülür. – Bakı: Gənclik, 1981.


## Критические мишени Мирзы Алекпера Сабира в XXI веке


**Эльнара Алиева**
Доктор философии по филологии
Институт языкознания имени Насими НАНА. Азербайджан.
E-mail: dok.elnare_e@mail.ru



**Резюме.** Азербайджанская поэзия – это многогранный мир с богатой, древней историей. Тысячи поэтов ушли из этого мира до сегодняшнего дня, однако не всем посчастливилось покорить века и тысячелетия. Мирза Алекперу Сабиру, чье 160-летие уже отмечалось, было суждено быть именно таким любимым и избранным.

Мирза Алекпер Сабир – поэт, создавший литературную школу в азербайджанской литературе. Заложив основы революционно-демократической сатиры, он призывал людей к борьбе против лишений. В своих сатирах Сабир создал многообразные человеческие типы. Некоторые из этих персонажей не осознают своих недостатков, гордятся своими негативными поступками, а некоторые страдают от горьких лишений. С горечью в сердце бессмертный поэт описывает женщин своей эпохи, а иногда критикует их невежество и отсталость их же собственным языком. Самым большим желанием поэта было увидеть свой народ на пути науки, просвещения и культуры, увидеть следы своего народа среди народов. Отрадно, что мечты поэта и то, что он хотел увидеть, уже сбылись.

В статье творческие образы М.А.Сабира различных стилей анализируются в сравнительном плане с нашим современным временем.


**Ключевые слова:** М.А.Сабир, поэзия, поэт, Азербайджан